**Dövlət Statistika Komitəsində ümummilli lider Heydər Əliyevin anım mərasiminə həsr olunmuş tədbir keçirilmişdir.**



Dekabrın 11-də Dövlət Statistika Komitəsində ümummilli lider Heydər Əliyevin vəfatının 11-ci ildönümünə həsr edilmiş anım mərasimi keçirilmişdir. Öncə anım mərasiminin iştirakçıları ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Həmid Bağırov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrləri ilə bağlı ətraflı məlumat vermişdir. Cənab Bağırov öz çıxışında bildirmişdir ki, mühüm iqtisadi və siyasi qərarları ilə yaddaşlarda iz qoymuş xalqımızın əbədi lideri, ömrünün 60 ildən çoxunu öz doğma xalqına, onun gələcək xoşbəxtliyinə sərf etmişdir. Güclü iradəyə və milli ruha malik olan ulu öndər Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə öz xalqının iradəsinə tabe olaraq 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasına və ən nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmdə uğur qazanmasına nail olmuşdur. Ulu öndər xalqımızın gələcək inkişaf yolunun möhkəm təməlini qoyaraq Azərbaycanın 10 illər sonra da inkişaf istiqamətini proqnozlaşdırmaqla dövlətimizin qlobal inkişaf yolunu müəyyənləşdirmişdir.



Tədbirdə çıxış edən Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov bildirmişdir ki, Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafında böyük və müstəsna rolu olan əvəzsiz şəxsiyyətdir. 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlanıldı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, ulu öndər digər sahələrdə olduğu kimi bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yaratdı. 1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu, davamlı iqtisadi artımın əsası qoyuldu, eləcə də əhalinin həyat səviyyəsi yaxşılaşdı. Qiymətlər sabitləşdi, özəl sektorun inkişafının dəstəklənməsi mexanizmi yaradıldı, demokratik, hüquqi-dünyəvi dövlət qurulması prosesi ilə yanaşı, bazar iqtisadiyyatına keçid prosesinin sürətləndirilməsi təmin olundu və ölkədə gələcək dinamik və davamlı artımın maliyyə əsasları yaradıldı. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlərin sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində bu gün müstəqil Azərbaycan Respublikası bir çox zirvələri fəth edərək BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv



seçildi, kosmosa peyk çıxaran məhdud saylı dövlətlər sırasına daxil oldu, bazar iqtisadiyyatına keçidi başa çatdırdı, xaricə investisiya yatıran ölkəyə, regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əsas söz sahibinə çevrildi.



Daha sonra çıxış edənlər Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov, Komitənin Aparat rəhbəri Ziyad Abbasəliyev, Aparatın Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov Ulu öndərin XX əsrin sonlarında Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, təhsil və elm sahəsində, eləcə də onun Azərbaycançılıq ideologiyasının inkişafında misilsiz xidmətlərindən bəhs etmişlər.

Bildirilmişdir ki, ölkəyə rəhbərliyi dövründə bütün sahələr kimi statistika da ümummilli liderin diqqətindən kənarda qalmamışdır. Statistiklər işlədikləri dövr ərzində hər zaman dövlətin qayğısını öz üzərində hiss etmiş və ümummilli liderin statistika sisteminə, onun fəaliyyətinə isti münasibəti qeyd etdiyi fikirlərində də ifadə edilmişdir. Ulu öndər çıxışlarının birində qeyd etmişdir – "...Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır...". Bu fikrin özü statistiklərə verilmiş ən yüksək qiymət deməkdir.




Sonda tədbirə yekun vuran Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Həmid Bağırov bir daha vurğulamışdır ki, Azərbaycanın yeni tarix salnaməsinə qızıl hərflərlə yazılmış Heydər Əliyev dövrü hər bir azərbaycanlı üçün çox gərəkli bir tarixdir. Müasir Azərbaycan dövlətinin memarı Heydər Əlirza oğlu Əliyevin adı həmişə böyük sevgi ilə anılacaq, həyat və fəaliyyəti hər birimiz üçün örnək olacaqdır.